# Qarabağ Dirçəliş Fondu Böyük Qayıdış üçün nə edib?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## 5.3.7. İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Torpaqlarımız işğaldan azad edildikdən sonra Böyük Qayıdış barədə anonslar verilməyə başladı. Müharibə bitdikdən qısa müddət sonra ölkə başçısı bəyan etdi ki, bütün qaçqın və köçkünlər öz yurdlarına qayıdacaq, bunun üçün də Böyük Qayıdış prosesinə hazırlığa başlanılır. Məlum olduğu kimi, Böyük Qayıdış prosesinə çox ciddi hazırlıq gedir.**

Şəhərlər, kəndlər, qəsəbələr yenidən qurulur, inşa edilir, infrastruktur qurulur, bir sözlə, azad ərazilərimizdə insanlarımızın yaşaması üçün hər cür şərait yaradılır. Şəhərlər, rayonlar, qəsəbələr, kəndlər tam abad edildikdən və burada yaşayış üçün böyük şərait yaradıldıqdan sonra insanlarımızın öz evlərinə qayıdışına start veriləcək. Heç şübhəsiz ki, Böyük Qayıdış prosesi pərakəndə şəkildə həyata keçirilə bilməz. Bunun üçün xüsusi bir qurumun yaradılmasına ehtiyac vardı. Qarabağ Dirçəliş Fondu bu işi həyata keçirən qurumdur. Yəni . Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə yaradılıb. Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il fərmanı əsasında publik şəxs kimi yaradılan qurumun indiyə qədər gördüyü işlər maraqlıdır.

Qeyd edək ki, Fondun yaradılması ilə bağlı Prezidentin imzaladığı bu Fərman ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin, 30 ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılmasının, ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biridir. Həmçinin ən əsası isə, bu sənəd işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olduğunu təsdiqləyir.

İndiyə qədər Qarabağ Dirçəliş Fondu böyük Qayıdışla bağlı nə işlər görüb?

Qarabağ Dirçəliş Fondunun rəhbəri Rəhman Hacıyev keçən il çıxışlarından birində fondun məqsəd və qayəsini belə ifadə edib: "Qarabağın dirçəlişi fondumuzun prioritet istiqamətidir". Fond rəhbəri onu vurğulayırdı ki, Heydər Əliyev Fondu ilə sıx əməkdaşlıq edirlər və əməkdaşlıqlar uzunmüddətli olacaq. Əlbəttə, Qarabağın dirçəldilməsində, bərpasında, Böyük Qayıdışın daha da tezliklə baş verməsində hər iki fondun əməkdaşlıq əlaqələrinin faydası çoxdur. Qarabağda aparılan bərpa-quruculuq və abadlıq işlərində Fondun aktivliyi diqqəti çəkir.

### Qayıdışın sürətlənməsinə təkan verən amillər...

Ekspertlərin bildirdiyinə görə, işğaldan azad olunan ərazilərdə bərpa-quruculuq və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Qarabağ Dirçəliş Fondunun yaradılması çox mühüm əhəmiyyət kəsb edib. Çünki bu fondun yaradılması proseslərin daha da səmərəli təşkil edilməsinə, habelə işğaldan azad olunan ərazilərdə rifahın davamlı artmasına dəstəkdir. Ekspertlər qeyd edir ki, 30 il ərzində erməni vandalları həmin ərazilərdə insanlığa sığmayan vəhşiliyə imza ataraq, oradakı bütün infrastrukturu, maddi və mədəni abidələri dağıdıb, yeraltı sərvətlərimizi vəhşicəsinə talan ediblər. Ona görə də, işğaldan azad olunan ərazilərə normal həyatın qaytarılması və iqtisadi inkişafın bərpası kifayət qədər böyük maliyyə vəsaiti tələb edir. Qısa müddət kəsiyində Azərbaycan Prezidentinin təşəbbüsü ilə Füzuli, Cəbrayıl, Xocavənd, Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonlarında və Şuşa şəhərində infrastruktur layihələrinin reallaşmasına start verilib, yol-nəqliyyat infrastrukturu yaradılır, kommunikasiya xətləri çəkilir, təhsil, səhiyyə, turizm və sənaye müəssisələri tikilir, hava limanları inşa edilib, mədəni, tarixi və dini abidələr bərpa olunur.

### Xarici diplomatlarla görüş, beynəlxalq əlaqələr...

Qarabağ Dirçəliş Fondunun rəhbərliyi mütamadi olaraq xarici şirkətlərlə, xarici diplomatlarla, donor təşkilatlarla, habelə başqa qurumlarla Qarabağın dirçəldilməsi prosesi ilə bağlı müzakirələr aparır, əməkdaşlıqlar barədə addımlar atır. Əməkdaşlıq əlaqələrini möhkəmləndirən görüşlərin, tədbirlərin sayı çoxdur.

### Qarabağ Dirçəliş Fondunun tədbirləri...

1 mart 2022-ci il tarixində Qarabağ Dirçəliş Fondu, "Opalus Partners Group" və "Geopro" şirkətlərinin birgə təşkilatçılığı ilə işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına dəstək olmaq məqsədilə, "korporativ ianəçilik mədəniyyətinin təşviqi" mövzusunda fikir mübadiləsi görüşü keçirilib. Qeyd edilirdi ki, məqsədi ianə mədəniyyətini təbliğ etmək, bu mövzuda maarifləndirmə aparmaqla şirkət daxilində işçi heyətin funksional aktivliyini, mədəni, mənəvi və milli dəyərlərə sadiqliyini artırmaq və Qarabağın dirçəlişi uğrunda həmrəylik göstərməyə təşviq etməkdir.



10 iyun tarixində isə Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Beynəlxalq İnkişafa Yardım İdarəsinin (AİDA) dəvəti ilə ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu, Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) ilə birgə təşkil etdiyi "Əcnəbi diplomatlar üçün Xarici Siyasət Proqramı"nda məruzəçi qismində çıxış edib. O, "Əcnəbi diplomatlar üçün xarici siyasət Proqramı - 2022" adlı ixtisaslaşma kursu çərçivəsində 11 ökəni təmsil edən 15 diplomat qarşısında "Qarabağda Urbisid" adlı təqdimatla işğaldan azad edilən ərazilərdə erməni terroru nəticəsində maddi obyektlərə, memarlıq inciləri olan tarixi abidələrə, dəyən zərər haqqında ətraflı məlumat verib.

Bu tarixdə həmçinin Qarabağ Dirçəliş Fondunun vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndəliyinə avtomobil ianə edilib.

Qarabağ Dirçəliş Fondu eyni zamanda Şuşada Üzeyir Hacıbəyovun heykəlinin yenidən qurulması üçün maliyyə dəstəyi göstərib.

Qarabağ Dirçəliş Fondu bundan başqa da xeyli sayda işlər görüb və bu işlər birbaşa Qarabağın dirçəldilməsinə xidmət edir və Böyük Qayıdış prosesinin sürətlənməsinə dəstək olur. Əlbəttə, Fondun cəlb etdiyi ianələr də, dəstəklər də birbaşa bu prosesin xeyrinə olan bir məsələdir. Bu baxımdan, Qarabağ Dirçəliş Fondunun əhəmiyyətli layihələrinin, faydalı tədbirlərinin xeyri, faydası hiss olunur.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**